# Azərbaycan qadını:

## zəriflik və gücün vəhdəti

**Azərbaycan qadını tarix boyu həm zərifliyi, həm də gücü ilə seçilmişdir. O, ailənin dayağı, cəmiyyətin fəal üzvü, dövlətçilik tariximizin əvəzolunmaz siması olmuşdur. Xüsusilə, Azərbaycanın müasir inkişaf yolunda əldə etdiyi zəfərlərdə qadınlarımızın böyük rolu var.**

Qədim dövrlərdə Tomris kimi igid qadın hökmdarlarımız, XIX əsrdə Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə açılan ilk qız məktəbinin yetirmələri, XX əsrdə ilk qadın həkimlər, müəllimlər və siyasətçilər cəmiyyətimizə öz töhfələrini vermişlər. Azərbaycan qadını təkcə ailənin qoruyucusu deyil, həm də dövlətin inkişafında, elm, mədəniyyət, incəsənət və siyasət sahələrində uğur qazanmış, övladlarını milli-mənəvi dəyərlər əsasında tərbiyə etmiş, həm də cəmiyyətin inkişafına töhfə vermişdir. Azərbaycan qadını güclü xarakterə, dərin mənəviyyata və yüksək intellektə malikdir. Onun zərifliyi və fədakarlığı ailədə, cəmiyyətdə və dövlətçilikdə özünü göstərir. Azərbaycan qadını həm ana, həm həyat yoldaşı, həm də iş qadını kimi cəmiyyətin ən aparıcı qüvvələrindən biridir.

Azərbaycan qadınları dünyanın bir sıra qabaqcıl ölkələrinin qadınlarından daha əvvəl seçib-seçilmək hüququ qazanmışlar. Mədəniyyət, elm, təhsil və səhiyyənin ən müxtəlif istiqamətləri üzrə müsəlman Şərqinin qadınları arasında ilk addımları atmaları onların yüksək yaradıcı potensialının nəticəsidir. Təqdirəlayiq haldır ki, gənc xanımlarımız bu ənənələrə ehtiram bəsləyir, nəsillərin mənəvi varisliyi prinsipini lazımınca qoruyur, öz maarifpərvər, ziyalı sələflərinin yolunu uğurla davam etdirirlər.

Müasir dövrdə qadınlarımız siyasi və ictimai həyatda mühüm mövqeyə sahibdirlər. Prezident cənab İlham Əliyevin ömür-gün yoldaşı, Birinci vitse-prezident Mehriban Əliyeva bu nümunənin parlaq təcəssümüdür. Mehriban xanım Əliyeva Azərbaycan qadınının gücünü, zərifliyini və yüksək insani keyfiyyətlərini özündə birləşdirən parlaq şəxsiyyətdir. Onun fəaliyyəti təkcə ölkə daxilində deyil, beynəlxalq miqyasda da böyük rəğbət qazanmışdır. Mehriban xanım Əliyeva humanist dəyərləri ilə seçilir, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafına verdiyi töhfələrlə ölkəmizin inkişafına mühüm dəstək göstərir. O, Heydər Əliyev Fondunun rəhbəri kimi sosial layihələr həyata keçirir, milli-mədəni irsimizin qorunması və dünyaya tanıdılması istiqamətində böyük işlər görür. Onun fəaliyyəti birinci xanım olaraq qadınların cəmiyyətdəki mövqeyini daha da gücləndirmiş, onların potensialının reallaşmasına dəstək vermişdir. Mehriban Əliyevanın liderliyi və qayğısı Azərbaycan qadınının təkcə incə və zərif deyil, həm də güclü və iradəli olduğunu bir daha sübut edir.



Azərbaycan qadını Vətən müharibəsində böyük fədakarlıqlar göstərmişdir. Azərbaycan əsgərinin ən böyük dayağı onun anası, həyat yoldaşı, bacısı olmuşdur. Müharibə dövründə qadınlarımız həkim, tibb bacısı, jurnalist, hərbi xidmətçi kimi ön cəbhədə, eləcə də arxa cəbhədə fəal iştirak etmişlər. Şəhid anaları, şəhid həyat yoldaşları, qazilərimizin qəhrəman xanımları Azərbaycan qadınının gücünü və dözümünü bir daha nümayiş etdirdi. Azərbaycan qadını övladını Vətən sevgisi ilə böyüdərək ona vətənpərvərlik aşıladı və bu ruh sayəsində Azərbaycan Ordusu tarixi qələbə qazandı.

Ötən müddət ərzində milli dövlət quruculuğu prosesində yaxından iştirak edərək bütün sahələrdə əzmlə çalışan qadınlarımız Vətənimizin qüdrətinin artırılması, xalqımızın rifahının yüksəlməsi naminə dolğun və səmərəli fəaliyyət göstərmiş, sosial-iqtisadi və mədəni inkişafda mühüm nailiyyətlər əldə etmişlər.

Azərbaycan dövləti cəmiyyətimizin zərif təbəqəsi olan qadınların inkişafına xüsusi önəm verir. Qadın hüquqlarının qorunması, onların cəmiyyətdə aktiv rol alması üçün geniş imkanlar yaradılır. Müasir dövrdə Azərbaycan qadını elm, biznes, siyasət, incəsənət və idman sahələrində mühüm uğurlar qazanır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə qadınların rolunun artırılması, gender bərabərliyinin təmin edilməsi istiqamətində mühüm addımlar atılır. Bu, gələcəkdə Azərbaycan qadınının daha böyük uğurlar əldə etməsinə və cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsinə imkan yaradır.

Azərbaycan qadını həm zərifliyi, həm gücü, həm də fədakarlığı ilə seçilir. Mehriban Əliyeva humanizmi, liderliyi və vətənə sevgisi ilə bütün qadınlar üçün örnəkdir. Qadınlarımız həm ailədə, həm cəmiyyətdə, həm də dövlətin inkişafında mühüm rol oynayırlar. Onların zəhməti və fədakarlığı Azərbaycanın gələcəyini daha da parlaq edəcək. 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bütün Azərbaycan qadınlarını təbrik edir, onlara uğurlar arzulayıram.

**Elnarə MUSTAFAYEVA,**
**YAP Yasamal rayon təşkilatının sədr müavini.**